*Akif MƏMMƏDLİ* *
*Rahim HƏSƏNOV* *

# AKADEMİK YAQUB MAHMUDOVUN FƏALİYYƏTİNDƏ ŞİMAL-QƏRBİ AZƏRBAYCAN MƏSƏLƏSİ

**Açar sözlər:** Yaqub Mahmudov, Şimal-Qərbi Azərbaycan, ingiloylar, Car-Balakən, Şəki.
**Key words:** Yaqub Makhmudov, North-West Azerbaijan, Inqlaces, Car-Balaken, Sheki.

## Giriş

Azərbaycanın zəngin tarixə malik olması, dövlətçilik ənənələrinin minillərə dayanması elmi ictimaiyyətə məlumdur. Ölkənin bütün bölgələri kimi Şimal-Qərbi Azərbaycan ərazisi də çox böyük mədəni, tarixi irsə sahibdir. Lakin uzun illər bölgə insanları bu qiymətli mədəni, tarixi irsi öyrənməkdən məhrum idi. Yunan coğrafiyaçısı Strabonun biraz bədiiləşdirilmiş şəkildə deyilsə "Məbədlər Diyarı" adlandırdığı bölgə həm qərb, həm də şimal qonşularımız tərəfindən dırnaqarası araşdırılmaya daha çox cəlb edilmiş, bu qədim türk yurdu ilə bağlı mənbələr və maddi tapıntılar yetərincə saxtalaşdırılmışdır. Bölgədə mövcud olan islamaqədərki tarixi abidələrin "qonşular" tərəfindən tədqiqi nəticəsində yerli türk əhalinin minillər boyu ortaya qoyduğu maddi mədəniyyət nümunələri özününkiləşdirilmişdir.

Ötən əsrin 80-ci illərinin sonundan etibarən, bölgənin araşdırılmasında bir növ yeni mərhələyə start verildi. Bu, Bakı Dövlət Universitetinin Tarix fakültəsində professor Yaqub Mahmudovun mühazirələrindən başladı. Azərbaycanın şimal-qərb bölgəsinin "açıq təbiət və tarix muzeyi" olması fikri bu mühazirələrin birində səsləndirilmişdi. Y.Mahmudov tələbələrinin hər birinin qəlbində elə bir "Vətən Ocağı" yandırmışdı ki, hər bir tələbə öz doğma diyarına döndükdə, orada hər daşa, hər qayaya müqəddəs tariximizin bir parçası kimi baxmağa başlamışdı.

## Düşmənlərə sədd olan tarixçinin türkçlük-azərbaycançılıq təəssübü

Şimal-Qərbi Azərbaycan, 2 xarici dövlətin sərhədində (ikisi də bu bölgəyə iddialı olan), çox həssas və strateji cəhətdən çox önəmli bir nöqtədə yerləşir. Y.M.Mahmudov hələ universitetdə işləyərkən, 1992-ci ildə Balakən rayonunun Təpəçöl adlanan və kurqanların olduğu bölgəsində tələbələrlə birlikdə tədqiqat işlərinə başlamışdı və bunu "ilk təşəbbüs" adlandırmaq olardı. Onilliklər boyu

* **Akif Məmmədli** - tarix üzrə fəlsəfə doktoru, AMEA Şəki Regional Elmi Mərkəzin elmi işçisi
* **Rahim Həsənov** - AMEA A.A Bakıxanov adına Tarix İnstitutunun dissertantı





obyektiv araşdırmadan kənarda qalan Balakən və bütövlükdə Azərbaycanın Şimal-Qərb bölgəsi tədqiqata cəlb edildi.

20-ci yüzilliyin 20-ci illərindən başlayaraq, Sovet hakimiyyətinin ilk dövründə bölgənin taixinin araşdırılması sahəsində İ.Petruşevskinin müəyyən rolu olmuşdu. Onun "Car-Balakən Camaatlığı" haqqında yazdığı əsər [10] ilk baxışda ciddi elmi əsər kimi görünürdü. Lakin, bu əsər də o zamanadək yazılanlardan çox fərqlənmir, əhali arasında bir növ dezinformasiya xarakteri daşıyırdı. Belə ki, əsər buradakı xalqlar arasında etimadsızlıq yaradır, etnik zəmində münaqişə üçün "dəlil toplayanlara destruktiv addımlar atmağa rəvac verirdi". Hələ ötən əsrin 90-cı illərində bu və digər anti-azərbaycan mövqeli, anti-türk ideyalı əsərlərin zərərli nəticələri və bu zərərli nəticələrin aradan qaldırılması üçün bölgənin tarixinin yenidən, milli konsepsiya ilə işlənməsi barədə dəfələrlə Yaqub müəllimin fikirlərini eşitmişdik. Artıq, o zaman Y.Mahmudov bu sahədə mütəxəssislər yetişdirməyə başlamışdı.

Bölgənin tarixinin, arxeologiya və etnoqrafiyasının öyrənilməsində yeni mərhələ Y.M.Mahmudovun AMEA A.A.Bakıxanov adına Tarix İnstitutuna rəhbər təyin olunmasından sonra başladı. Yaqub müəllimin rəhbərliyi altında A.Məmmədovanın "Car-Balakən Camaatlığı" [1], Ş.Əliyevin "İngiloylar" [3], E.Lətifovanın "Şimal-Qərbi Azərbaycan – İlisu Sultanlığı" [9], Z.Cavadovanın "Şimal-Qərbi Azərbaycan" [2], Ə.Məmmədovun "Şimal-Qərbi Azərbaycanda Zaqatala dairəsi" [8], A.Məmmədlinin "Azərbaycanın şimal-qərb bölgəsinin tarixi abidələri" [5], A.Məmmədlinin "Balakən-Zaqatala bölgəsinin tarixinə dair" [6], İ.Əliyevanın "Çar Rusiyasının şimal-qərbi Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr)" [4] kimi sanballı elmi əsərlər yazıldı.

Şimal-Qərbi Azərbaycanın tarixi, etnoqrafiyasının dərindən araşdırılması üçün akademik Yaqub Mahmudov bütün səylərini sözügedən əraziyə yönəldərək, uzun illər böyü yetişdirdiyi elm adamlarını bölgəyə ezam etdi. Məhz böyük alimin səyləri nəticəsində 2011-ci ildə "Şimal-Qərbi Azərbaycan tarixi əsəri" işıq üzü görmüş oldu. Əsərin ön sözündə akademik Yaqub Mahmudov bölgənin tarixinin illərlə araşdırılmaması, bölgədə tarixi memarlıq abidələrinin anti-azərbaycan yönümlü tarixçilər tərəfindən özgələşdirilməsini vurğulayaraq qeyd edirdi: "Şimal-Qərbi Azərbaycan əzazisi yurdumuzun nadir tarix xəzinəsidir. Ulu babalardan yadigar qalıb bu xəzinə bizə. Lakin bu müqəddəs əmanətin əsl sahibləri olan biz, min-min təəssüflər olsun ki, həmin qiymətli xəzinədən lazımınca xəbərdar deyilik. Dərindən araşdırmamışıq bu diyarın tarixini. Yad əllər isə hey oynamışdır bu zəngin tarix xəzinəmizdə. Dəridən-qabıqdan çıxmışlar saxtalaşdırmaq və "özününkiləşdirmək" üçün qədimdən də qədim olan bu Azərbaycan ellərinin tarixini" [11, səh. 3].

"Şimal-Qərbi Azərbaycan tarixi" əsərində bölgənin qədim dövrdən tarixi-coğrafiyası, yerli türkdilli etnosların yaradıqları dövlətçilik sistemləri, qonşu dövlətlərlə münasibətlər öz əksini tapmışdır. Yaqub Mahmudovun çox həssaslıqla yanaşdığı İlisu sultanlığı və Car-Balakən camaatlığı ilə bağlı tədqiqatların nəticəsi əsərdə verilərək, anti-türk, anti-azərbaycan yönümlü, gürcü və Dağıstan alimlərinin əsassız fikirləri alt-üst edilmişdir [11, səh.108-162]. Yaqub Mahmudov bəzi gürcü alimlərinin tədqiqatlarına münasibət göstərərək qeyd edir: "Nə qədər acı olsa da, bəzi gürcü tədqiqatçıları tarixi dostluq ənənələrimizi tapdalayaraq Şimal-Qərbi Azərbaycan torpaqlarını ta qədimdən, bəzən də erkən orta əsrlərdən Gürcüstanın tərkibinə qatıldığını, bu ərazidə yaşayan qədim yerli əhalinin gürcülərlə bağlı olduqlarını uydurma faktlarla "sübut edən" qondarma bir "tarix" yaratmağa çalışırlar"[11, səh. 10]. Bölgədə yaşayan İngiloylar haqqında göstərilən əsaslı faktlar, bu xalqın tarixi kökünün aşkara çıxarılması ilə nəticələnmişdir. Qədim dövrdən XX əsrin birinci yarısına qədərki dövrü əhatə edən "Şimal-Qərbi Azərbaycan tarixi" əsəri anti-türk yazarların əsaslı iddialarına qarşı bir növ sədd çəkmiş oldu.

Akademik Yaqub Mahmudov Şimal-Qərbi Azərbaycanın tarixi ilə bağlı məsələlərdə orta əsrlərdə formalaşan və Azərbaycan tarixində xüsusi iz buraxmış İlisu sultanlığının tədqiq edilməsinə xüsusi önəm vermişdir. Bu məqsədlə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı tarix üzrə fəlsəfə doktoru Elvira Lətifovanın tədqiq edərək qələmə aldığı "Илисуйское Султанство" əsəri, akademik Yaqub Mahmudovun rəhbərlik etdiyi qurumun Şimal-Qərbi Azərbaycan tarixi üçün verdiyi ən böyük töhvələrdəndir. Belə ki, kitabda İlisu sultanlığının ərazisi, yerli aborigen türk əhalisi, sultanlığın ərazisinin qədim tarixi əsaslı faktlarla öz əksini tapmışdır. Yaqub Mahmudov uzaqgörən bir tarixçi alim olaraq, düzgün analiz etmişdir ki, sözügedən ərazinin tarixinin anti-azərbaycan meyilli qüvvələr tərəfindən illərlə saxtalaşdırılması, həmin bölgələrdə münaqişə ocaqlarının yaranması üçün əsaslar yarana bilər. Buna görə də akademikin yetirmələrindən biri olan Elvira Lətifovaya bu məsuliyyətli iş həvalə edilmiş və müəllif yetərincə səy göstərərək, böyük bir fundamental elmi işin öhdəsindən layiqincə gəlmişdir. Akademik Yaqub Mahmudov "Илисуйское Султанство" kitabında yazdığı ön sözdə bölgə ərazisinin və əhalisinin, bölgədə mövcud olan abidələrin Azərbaycan xalqına məxsus olduğunu söyləyərək, əsaslı dəlillərlə sultanlığın Dağıstana məxsus olma böhtanları ilə çıxış edən müəlliflərin fikirlərini alt-üst etmişdir. Yaqub Mahmudov ərazinin Azərbaycan Albaniyasının bölgəsi olması fikri üstündə dayanaraq, bölgənin Türk-Oğuz yurdu olması məsələsini ortaya qoymuşdur. Kitabın ön sözündə görkəmli akademik xüsusən vurğulayır ki: "Şimal-Qərbi Azərbaycan qədim və möhtəşəm Azərbaycan Albaniyasının tərkib hissəsi olmuşdur. Təkcə Şimal-Qərbi Azərbaycan deyil, Dağıstanın da böyük bir hissəsi Azərbaycan Albaniyasının ərazisidir" [9, ст 5].





Şimal-Qərbi Azərbaycanda yaşayan, diyarın aborigen xalqı olan ingiloyların tarixi ilə bağlı tale yüklü məsələlər akademik Yaqub Mahmudovu narahat etməyə bilməzdi. Belə ki, həm sovet dövründə, həm də indiki zamanımızda bir sıra gürcü, erməni, Dağıstan tarixçiləri ingiloyların etnik kökünü, tarixini saxtalaşdırmağa çalışmışlar və hal-hazırda da bu iş məqsədyönlü şəkildə davam etdirilir. Qədim Azərbaycan Albaniyasının tarixində xüsusi yer tutan ingiloyların, gürcü və yaxud gəlmə millət kimi qiymətləndirilməsi, Yaqub Mahmudovun, rəhbərlik etdiyi təşkilatla bərabər səfərbər olmasına gətirib çıxardı. Nəticə olaraq, A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Şirinbəy Hacıəlinin müəllifliyi ilə "Şimal-Qərbi Azərbaycan: İngiloylar" əsəri işıq üzü gördü. İngiloyların yerli aborigen əhali olması, onların Albaniya dövlətinin tarixində xüsusi rol oynaması ilə bağlı faktlar əsərin əsas məzmununu təşkil edilir. Əsərdə Q.A.Melikaşvili, T.O.Papuaşvili, D.Musxeleşvili, Q.Q.Mkrtumyan, T.M.Aytberov, H.X.İbrahimov kimi yurdumuzun tarixini saxtalaşdırmağa çalışan dırnaqarası tarixçilərin irəli sürdüyü fikirlər elmi əsaslarla və faktlarla rədd edilmiş, ingiloyların Azərbaycan Albaniyasında yaşayan gel tayfaları olması əsaslı dəlillərlə sübut olunmuşdur. Kitabın ön söz müəllifi olan akademik Yaqub Mahmudov qeyd edirdi: "Qonşu və qardaş xalqlarla aramıza nifaq salmağa çalışan mkrtumtyanlar, musxelişvililər, onlardan geri qalmayan ibrahimovlar, aytbekovlar və neçə-neçə beləri bilməmiş deyillər ki, Rusiya bu yerləri işğal etməzdən qabaq bizim bütün Cənubi Qafqazı idarə edən çox qüdrətli dövlətimiz olub [3, səh. 9].

Akademik Yaqub Mahmudov Azərbaycanın dövlətçiliyində xüsusi önəm daşıyan Albaniya dövlətinin tarixi, arxeologiyası, etnoqrafiyası və arxitekturası ilə bağlı məsələlərə xüsusi önəm vermişdir. Şimal-Qərbi Azərbaycan Albaniya dövlətinin siyasi-dini mərkəzlərindən biri olduğundan, burada çoxlu sayda memarlıq abidələri, arxeoloji abidələr mövcuddur. Müxtəlif anti-azərbaycan meyilli tarixçilərin dırnaqarası elmi iddialarına qarşı Yaqub Mahmudovun rəhbərlik etdiyi qurumun əməkdaşları əsaslı araşdırmalara başlamış, bir sıra elmi əsərlər nəşr edilmişdir. Tarix üzrə fəlsəfə doktoru Akif Məmmədlinin "Balakən-Zaqatala bölgəsinin tarixinə dair", "Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası", "Balakən-Zaqatala bölgəsinin qədim tarixi abidələri" kitabları bölgənin maddi mədəniyyət abidələrinin öyrənilməsi baxımından xüsusi önəm daşıyır. "Balakən-Zaqatala bölgəsinin tarixinə dair" kitabında müdafiə istehkamları, məbədlərlə bağlı tədqiqatların nəticəsi olaraq, Q.A.Melikaşvili, T.O.Papuaşvili, D.Musxeleşvili, Q.Q.Mkrtumyan, T.M.Aytbekov, H.X.İbrahimov kimi anti-türk xarakterli tarixçilərin irəli sürdükləri konsepsiyalar elmi əsaslarla təkzib olunur.

Həmin əsərlərin özəllikləri ondan ibarətdir ki, burada akademik Yaqub Mahmudovun Azərbaycançılıq-Türkçülük strategiyasına uyğun olaraq, bölgənin tarixi və maddi mədəniyyət abidələri tam reallığı ilə araşdırılmış, gürcü, erməni və dağıstandilli bəzi tarixçilərin fikirləri alt-üst edilmişdir.

Şimal-Qərbi Azərbaycanın yeni dövr tarixi, xanlıqlar dövründə Şəki xanlığı, bölgənin rus işğalına məruz qalması ilə bağlı tədqiqatlar da akademik Yaqub Mahmudovun nəzərindən qaçmamışdır. Tarix üzrə fəsəfə doktoru Zərinə Cavadovanın müəllifi olduğu "Şimal-Qərbi Azərbaycan" kitabı bu aspektdən xüsusi önəm daşıyır. Akademik Yaqub Mahmudovun redaktorluğu ilə nəşr edilmiş bu əsərdə Şəki xanlığının çar Rusiyası tərəfindən işğalı, XIX əsrin birinci yarısında bölgədə çarizmə qarşı baş verən üsyanlar və əsasən də imperiyanın köçürmə siyasəti tədqiqat obyektinin əsasını təşkil edir. Bu baxımdan kitabın ön söz müəllifi olaraq Yaqub Mahmudov qeyd edir: "XIX yüzilliyin əvvəlində çarizmin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətinin ən mühüm tərkib hissəsi onun "uzaqgörən" köçürmə siyasəti idi. İmperiya siyasətinin icraçıları olan qanlı Rusiya generalları bu zaman strateji cəhətdən misilsiz əhəmiyyəti olan Car-Balakəndən 1000 Azərbaycan-Türk ailəsini zorla öz tarixi ata-baba torpaqlarından qoparıb Gürcüstanın içərilərinə köçürmüşlər" [2,səh.8]. Bunları söyləməklə akademik gürcü tarixçilərinin günümüzdə də iddia qaldırdıqları Azərbaycanın tarixi torpaqlarının onlara məxsus olmadığını və bununla bərabər bir sıra Gürcüstan ərazisinin tarixi Azərbaycan bölgəsi olduğunu sübut etmiş olur.

Görkəmli alimin elmi araşdırmalarından başqa bölgəyə səfərlər etməsi də olduqca təqdirəlayiqdir. 2009-cu ildə Yaqub Mahmudov AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun alimlərindən və Tarix Muzeyinin rəhbərliyindən ibarət böyük bir heyətlə Balakən-Zaqatala bölgəsinə səfər etmiş və bu səfər zamanı bölgənin bir çox tarixi abidələrinə də baxış keçirmiş, bölgənin ziyalıları və sadə insanları ilə görüşmüşdü. Bu görüşlərdə bölgənin Roma, İran, Ərəb və Rus işğalçılarına qarşı mübarizəsinə aid şərəfli keçmişindən, bölgənin Azərbaycan tarixindəki yeri və rolu barədə insanları qürurlandıran həyəcanlı və səmimi çıxışlar edilmişdi ki, onlar getdikdən sonra da günlərlə, həftələrlə bu mövzudan – bölgənin şərəfli tarixindən danışıldı, bunların təsiri uzun müddət yaddaşlardan silinmədi. Bu sətirlərin müəllifi də, o görüş və abidələrə səfərdən sonra öz taleyini AMEA A.A.Bakıxanov adına Tarix İnstitutuna bağlayaraq, həyatının mənasını doğma diyarının tarixini, arxeologiya və etnoqrafiyasını öyrənməkdə və onu öyrətməkdə görənlərdən oldu.

İlk dəfə 2010-cu ildə Balakəndə arxeoloji kəşfiyyat işləri və ardınca da arxeoloji qazıntılar aparıldı. Çünki, Yaqub müəllim AMEA-nın Rəyasət Heyətində, ümumiyyətlə, bütün rəsmi dövlət instansiyalarında bölgənin öyrənilməsinin təkcə tariximiz üçün deyil, ilk növbədə Azərbaycan dövlətçiliyi üçün vacib





olduğunu vurğulayırdı. Məhz onun təkidi və diqqəti sayəsində Balakən ərazisində Azərbaycan Albaniyasının antik dövr tarixinə aid çox qiymətli məlumatlar verən "Qazma kurqan və Məbəd yeri", "Xəncəritən Qobu" kimi yerlərdə arxeoloji qazıntılar aparıldı. Bölgə insanlarının özlərinə çox doğma bildiyi sadə və vətənpərvər insan, görkəmli tarixçi alim Y.M.Mahmudov 2011-2012-ci illərdə dəfələrlə bölgədə arxeoloji qazıntılar aparılan yerlərdə olmuş, bütün bölgə rəhbərliyinin, ziyalıların, müəllim və şagirdlərin, tələbələrin, KİV nümayəndələrinin diqqətini bura yönəltmiş, doğma diyarın, bütövlükdə Vətənimizin tarixinin öyrənilməsi və təbliği işində yeni bir mərhələnin başlanmasına nail olmuşdur.

Akademik Yaqub Mahmudovun Şimal-Qərbi Azərbaycanın tarixinin araşdırılması üçün verdiyi töhfələrdən biri də 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Şəki Regional Elmi Mərkəzində "Tarixi İrs və Etnoqrafiya" şöbəsinin yaradılmasında yaxından köməklik göstərməsi oldu. Şöbə fəaliyyətə başladıqdan etibarən, bölgənin tarixi irsinin araşdırılmasında əməkdaşlarının yaxından iştirakı olmuşdur. Şöbə əməkdaşları apardıqları araşdırmalarla bağlı Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası və ölkəmizdə təşkil edilmiş beynəlxaq konfranslarda məruzələr etməklə görkəmli alim, əməkdar elm xadimi akademik Yaqub Mahmudovun etimadını doğrultmağa çalışmışlar.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Arzu Əşrəfqızı. Car-Balakən camaatlığı. Bakı: 2007, 256 s.
2. Cavadova Z.Ə. Şimal-qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası. Bakı: 2002, 191 s.
3. Əliyev Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: 2007, 208 s.
4. Əliyeva İ.H. Çar Rusiyasının Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr). Bakı: 2014.
5. Məmmədli A. Azərbaycanın şimal-qərb bölgəsinin tarixi abidələri. Bakı: 2013, 228 s.
6. Məmmədli A. Balakən-Zaqatala bölgəsinin tarixinə dair. Bakı: 2007, 147 s.
7. Məmmədli A. Haylalarda yaşayan tariximiz. Bakı: 2013, 108 s.
8. Məmmədov Ə. Şimal-qərbi Azərbaycan: Zaqatala dairəsi. Bakı: 2001, 116 s.
9. Летифова Э.М. Северо-Западный Азербайджан: Илисуйское султанство. Баку: 1999, 109 с.
10. Петрушевский И. П. Джаро-Белоканские вольные общества в первой половине XIX века. Махачкала: 1993.
11. Şimal-Qərbi Azərbaycan tarixi. Bakı: Şərq-Qərb, 2011.

## NƏTİCƏ

Yerində olan bir alim, bir rəhbər yalnız bir bölgənin deyil, bütövlükdə Azərbaycan tarixinin öyrənilməsinə çox böyük təkan vermiş, bəzi separatçı meyillərin qarşısını almışdı. Qeyd etmək yerinə düşərdi ki, 2013-cü ildə, bu sətirlərin müəllifinin "Azərbaycanın şimal-qərb bölgəsinin tarixi abidələri" [5] və "Haylalarda yaşayan tariximiz" [7] adlı 2 elmi əsəri AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunmuşdur. Bu cür sevgi və qayğı ilə "İrəvan tarixi", "Qarabağ tarixi", "Naxçıvan tarixi" və digər xanlıqların da tarixi yazıldı. Tariximizə çox böyük töhfələr vermiş akademik Yaqub Mahmudov təkcə tarix yazmadı, həm də tariximizi yazacaq çox sayda tarixçi yetişdirdi ki, onlardan biri də bu sətirlərin müəllifləridir.

## SUMMARY

Prominent scientist, Honoured Scientist of Azerbaijan, academician Yagub Mahmudov is a great person in the studying of National history, and the great contributing to the researching of national and spiritual values of our people. The period when the historian scientist was headed Institute of History named after A.A.Bakikhanov, if we show as the beginning of a new stage in the study of National history, we will not be mistaken. Thus, academician Yagub Mahmudov's national-oriented concepts of Turkism and Azerbaijanism played a role as a barrier to falsification many years of our history.

Studying the rich history of North-West Azerbaijan, rejecting with scientific basis for the various forged theories about the region are one of the main directions of academic activity of academician Yagub Mahmudov. In the article, the authors spoke about the works done by the prominent scientist in the history of the north-western region of Azerbaijan and have tried to analysis the content of the scientific works published about the history of North-West Azerbaijan.